# Respublika çempionatına yekun vurulub

Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-sağlamlıq klubunun və FHN işçilərinin həmkarlar ittifaqının birgə təşkilatçılığı ilə Qəbələdə nazirliyin əməkdaşları arasında keçirilən beşnövçülük üzrə respublika çempionatına iyulun 12-də yekun vurulub.

Yarışda nazirliyin müxtəlif qurumlarını təmsil edən 18 komandanın heyətində 100-ə yaxın əməkdaş iştirak edib.

İyulun 8-də start verilən yarışda idmançılar maneələr zolağı, turnikdə güc çalışmaları, atıcılıq, xilasetmə üzgüçülüyü və dağa dırmanma mərhələləri üzrə bacarıqlarını nümayiş etdiriblər.

Komanda hesabında Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti, Dövlət Yanğından Mühafizə Xidməti, Xüsusi Riskli Xilasetmə Xidmətinin təmsilçiləri müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Şəxsi hesabda isə Mülkü Müdafiə Qoşunlarının əməkdaşı Müntəzir Əsgərov, FHN Akademiyasının əməkdaşı Elmir Əhədov, Tikintidə Təhlükəsizliyə Nəzarət və Dövlət Agentliyinin əməkdaşı Məmməd Cəfərzadə ilk üçlükdə yer alıblar.

Mükafatlandırma mərasimində çıxış edən FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılov və FHN-in İdman-sağlamlıq klubunun rəisi, polkovnik Füzuli Musayev idmançıları təbrik ediblər. Çıxışlarda ölkəmizdə hər il keçirilən və böyük marağa səbəb olan bu yarışın əhəmiyyətindən danışılıb, idmanın inkişafına göstərilən dövlət qayğısından bəhs olunub.

Sonda qaliblərə diplom, kubok, medallar və qiymətli hədiyyələr təqdim edilib.

**“Qəbələ”**

# Arxeoloji ekspedisiya Qəbələnin Səlbir və Antik şəhər yerində tədqiqat aparır

***Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun Antik dövr arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin rəhbərlik etdiyi Antik və ilk orta əsrlər Qəbələ arxeoloji ekspedisiyası Qəbələnin Səlbir və Antik şəhər yerində tədqiqat aparır.***



Qədim Qəbələnin Səlbir yaşayış yerində sahəsi 400 kvadratmetrdən artıq olan iri tikili kompleksi tədqiq olunur. Bu kompleks 2017-ci ildə ekspedisiya tərəfindən aşkarlanıb. Builki tədqiqatlar zamanı həmin kompleksə aid bir binanın ikimərtəbəli olması müəyyən edilib. Binanın tikintisində çay daşı və bişmiş kərpicdən geniş istifadə olunub. Binanın alt mərtəbəsinə kərpic pilləkənlərlə düşdükdən sonra dəhlizlər vasitəsilə müxtəlif istiqamətlərdə otaqlar müəyyən edilib. Dəhliz və otaqlar bişmiş kərpiclərlə döşənib və suvaq qatı ilə örtülüb. Binanın daxili divarlarının tərtibatında üstü həndəsi təsvirlərlə bəzədilmiş suvaq örtükləri də aşkar olunub. Tikili kompleksi içərisinə dəhlizlər, yardımçı otaqlar, dairəvi hovuz, saxsı tünglərdən hazırlanan su xətti, isitmə qurğuları, təsərrüfat quyusu, təndir daxildir. Binanın dağılmış hissələri içərisində xeyli say-

(Ardı 7-ci səhifədə).

# Gənc alimlər və tələbələr Qəbələdə çöl tədqiqatlarında

***AMEA-nın İctimai Elmləri Bölməsi və Gənc Alim və Mütəxəssislər Şurası tərəfindən Qəbələdə gənc arxeoloq alim və tələbələr üçün təşkil olunan beynəlxalq yay məktəbi başa çatıb.***

***Yay məktəbində gənc alimlər respublikada və dünyada arxeologiya sahəsində aparılan tədqiqatların nəticələri və əhəmiyyət kəsb edən əsas istiqamətlər üzrə müzakirələrə cəlb olunublar.***

Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminlinin “Qəbələdə arxeoloji tədqiqatlar və ilkin nəticələri” mövzusunda məruzəsi dinlənilib. O, Qafqaz Albaniyası və onun paytaxtı olmuş Qəbələ haqqında yazılı mənbələr, burada aparılmış ilk arxeoloji tədqiqatlara dair məlumat verib, həmçinin son illər rayonun Səlbir ərazisindəki qazıntılardan danışıb. Ərazidə aşkar olunmuş antik və orta əsrlər tikililərinin qalıqları, su təchizatı sistemi, istehsalat qurğuları və qəbirlər gənc alimlərin böyük marağına səbəb olub.

Beş gün davam edən yay məktəbinin iştirakçılarının dünyanın sivilizasiya tarixi və mədəniyyəti üçün böyük əhəmiyyət kəsb edən Səlbir ərazisinə ekskursiyası təşkil olunub. Onlar, həmçinin çöl tədqiqatlarında iştirak ediblər.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**“Qəbələ”**

# Yeni nəticələr əldə edilib

Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İns-



titutunun arxeoloji tapıntıların tarixləndirilməsi qrupu Qəbələdə tapılan arxeoloji nümunələrin tarixinin öyrənilməsində yeni nəticələr əldə edib.

Qrup Elektron Paramaqnit Rezonans və Termolüminessensiya metodlarından istifadə edərək Neolit dövrünə aid arxeoloji tapıntıların yaşlarını təyin edib.

Tədqiqat zamanı Qəbələ rayonundakı Qalayeri qədim yaşayış məskənindən götürülən diş nümunəsinin eramızdan əvvəl 3514-cü ilə aid olduğunu müəyyən edilib.

**“Qəbələ”**

# «Tolerant Azərbaycan» adlı konfrans

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondu Alban-Udi Xristian dini icması ilə birgə iyulun 19-da Nic qəsəbəsində “Tolerant Azərbaycan” adlı konfrans keçirib.***

“Alban-Udi Ocağı”nda keçirilən tədbirdə dini icmaların üzvləri, Nic qəsəbəsinin sakinləri, ziyalılar, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Absalam Hüseynov açıb.

Fondun icraçı direktor müavini Rəfi Qurbanov çıxışında çoxsaylı xalqların yaşadığı Azərbaycanda mövcud olan birgəyaşayışın, dostluq, qardaşlıq ənənəsinə əsaslandığını bildirib. Vurğulanıb ki, bu ənənələrin yaşadılmasında və inkişafında Nic qəsəbəsində fəaliyyət göstərən Alban-Udi Xristian dini icmasının da rolu böyükdür.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili bildirib ki, müasir Azərbaycan təkcə mədəniyyətlərarası və konfessiyalararası deyil, həm də dinlərarası dialoqun mərkəzidir. Udilər Avropa ilə Asiyanın kəsişməsində yerləşən tarixi vətənlərində öz dillərini, dinini, qədim adət-ənənələrini qoruyub saxlaya bilib. Qeyd



olunub ki, kiçik, amma dini baxımdan zəngin udi xristian icması Alban apostol kilsəsinin varisidir. Robert Mobili digər dini icmalar kimi, Alban-Udi Xristian dini icmasının da dövlətin diqqət və qayğısını daim hiss etdiyini vurğulayıb və tədbirin təşkilinə görə Mənəvi Dəyərlərin Təbliği Fonduna minnətdarlığını bildirib.

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki bölgəsi üzrə şöbə müdiri Taleh Abdullayev, Belarus-Azərbaycan İcmaları Konqresinin üzvü, Dünya Azərbaycanlılarının III Qurultayının nümayəndəsi Roman Quqasari, Oğuz şəhər Alban-Udi Xristian dini icmasının sədri Svetlana Ağababayeva, Nic qəsəbə ağsaqqallar qrupunun rəhbəri Frans Vartanov və başqaları Azərbaycanda hər zaman bütün dinlərə və fərqli mədəniyyətlərin nümayəndələrinə qayğı ilə yanaşıldığını bildiriblər.

Qəsəbə sakini Əhməd Məmmədli udilərə həsr etdiyi şeiri səsləndirib.

Konfrans müzakirələrlə davam edib.

**Səfa ASLANOV,**
**“Qəbələ”**

# Sərgi təşkil olunmuşdur

Rayon tarix-diyarşünaslıq muzeyi Heydər Əliyev Mərkəzində ümummilli liderin Azərbaycanda hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş sərgi təşkil etmişdir. Sərginin açılışı mərasimində muzeyin əməkdaşları, mərkəzin kollektivi,”ASAN Xidmət könüllüləri və bir sıra təşkilatların nümayəndələri iştirak etmişlər.

Sərginin açılışı mərasimində çıxış edənlər 1969-cu il iyulun 14-də birinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin mənalı ömür yolu haqqında danışmış, xalqın taleyini öz taleyi bilən, Vətənini canından cox sevən, onu göz bəbəyi kimi qoruyan dahi şəxsiyyətin Azərbaycanın müstəqilliyinə və dövlətçilik ənənələrinə verdiyi töhfələrdən söhbət açmışlar.



Natiqlər 1993 -cü ilin iyununda ikinci dəfə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyevin dövlətçiliyimizin mohkəmlənməsi üçün ömrünün müdrik çağında ağır, cətin bir yükün altına girdiyini və xeyirxah missiyası ilə millətin yaddaşına əbədi həkk olunduğunu qeyd etmişlər.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

# "Yay məktəbi" başa çatıb

*İyulun 12-də Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən həyata keçirilən tələbələr üçün beşgünlük “Yay məktəbi” başa çatıb.*

*Ölkənin 7 universitetinin və şəhid ailələrindən olan tələbələrin iştirakı ilə keçirilən yay düşərgəsində tələbələr Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən Çotari Kilsəsi, Alban-Udi mədəniyyət evi, “Azərbaycan Udi ocağı” ilə tanış olublar.*

***“Qəbələ”***